Kamran İmanov

Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin əqli mülkiyyət qurumları rəhbərlərinin İkinci görüşündə məruzə

Bakı – 2026

Kamran İmanov,

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin əqli mülkiyyət qurumları rəhbərlərinin İkinci görüşündə məruzə. Bakı, 2026

Bu kitabça Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun 12 oktyabr 2026-cı il tarıxində Bakı şəhərində keçirilən Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin əqli mülkiyyət qurumları rəhbərlərinin İkinci görüşündə etdiyi məruzə əsasında hazırlanmışdır.

© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi. 2026

Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin əqli mülkiyyət qurumları rəhbərlərinin İkinci görüşündə məruzə

Hörmətli xanımlar və cənablar, əziz həmkarlar!

İlk növbədə, Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Əqli Mülkiyyət Qurumlarının Rəhbərlərinin İkinci Görüşündə iştirak etmək üçün Bakıya təşrif buyurmuş hörmətli qonaqlarımızı səmimiyyətlə salamlamaq istəyirəm.

Türk Dövlətləri Təşkilatı Baş katibinin müavini **cənab Merey Mukazhanı**;

Qazaxıstan Respublikasının Ədliyyə Nazirliyinin Əqli Mülkiyyət Hüquqları Komitəsinin sədri **xanım Şolpan Abdreyevanı**;

Qırğızıstan Respublikasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri **cənab Maksat Mamıtkanovu;**

Türkiyə Patent və Əmtəə Nişanları Qurumunun – TÜRKPATENT-in prezidenti **professor doktor Muhammed Zeki Durakı**;

Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin Müəllif Hüquqları Baş İdarəsinin baş direktoru **cənab Erkin Yılmazı;**

Özbəkistan Respublikasının ədliyyə nazirinin müavini – Əqli Mülkiyyət İdarəsinin rəhbəri **cənab Muzraf İkramovu** səmimiyyətlə salamlayıram və hər birinizə **"Azərbaycana, Bakıya xoş gəlmisiniz!"** deyirəm.

Eyni zamanda, hörmətli qonaqlarımızla birlikdə ölkəmizə təşrif buyurmuş **nümayəndə heyətlərinin digər üzvlərini, ekspertləri və əməkdaşları da ürəkdən salamlayıram.**

Dəvətimizi qəbul edərək, bu mühüm görüşdə iştirak etdiyiniz üçün hər birinizə təşəkkürümü bildirirəm.

Hörmətli toplantı iştirakçıları!

1. Bu gün dünyada müşahidə etdiyimiz qeyri-stabil siyasi durum, baş verən mürəkkəb proseslər və müxtəlif gərginliklər, yeni siyasi reallıqların formalaşması, dövlətlər arasında sıx iqtisadi tərəfdaşlığın, siyasi dialoqun və birgə əməkdaşlığın, xüsusi olaraq tarixi-mənəvi köklərə söykənən həmrəyliyin əhəmiyyətini bir daha diqqət mərkəzinə gətirir.

Azərbaycan Qafqaz regionunda və Türk dünyasında mühüm və strateji mövqeyə malikdir. Ölkəmiz bu iki böyük coğrafi areallarını müxtəlif layihələrlə bir-birinə bağlayan təşəbbüskar dövlət və eyni zamanda strateji mərkəz kimi çıxış

edir. Dövlətimiz öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra bölgədə yaranmış yeni reallıq regionda davamlı sülhün, sabitliyin və əmin-amanlığın qurulması üçün yeni tarixi imkanlar yaradıb.

Ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən birini türk dünyasının birliyi təşkil edir. Çünki bu gün türk dövlətlərinin sıx inteqrasiyası müasir dövrün tələb etdiyi tarixi zərurətdir.

Türk ölkələrinin institusional birliyinin təməli məhz Azərbaycanda qoyulub. 2009-cu ilin oktyabr ayında türk dövlətlərinin başçılarının Naxçıvan şəhərində keçirilən IX Zirvə Görüşündə Naxçıvan Sazişinin imzalanması ilə Türk Dövlətləri Təşkilatının bünövrəsi qoyulub. Bu tarixi hadisə türk dünyasının geostrateji mənzərəsini köklü şəkildə dəyişib. Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünün 2024-cü ilin iyul ayında məhz Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilməsi və tarixi "Qarabağ Bəyannaməsi"nin imzalanması təşkilatın gələcək inkişaf xəttinin müəyyən edilməsinin başlanğıcı olub.

Qafqazın yeganə türk dövləti olan Azərbaycan türk dünyasında vacib rol oynayır. Türk dövlətləri arasında sarsılmaz birliyi təmin etmək və iqtisadi inkişafa nail olmaq üçün ticarət və investi-

siya əlaqələrini gücləndirmək vacibdir. **Çünki iqtisadi bağları zəif olan siyasi birliklərin uzunömürlü və dayanıqlı olması çətindir.** Qarşılıqlı iqtisadi asılılığın artması, əlaqələrin genişlənməsi və şaxələnməsi türk dünyasının siyasi həmrəyliyini möhkəmləndirir, təşkilatın qlobal müstəvidə güc mərkəzinə çevrilməsini daha da sürətləndirir.

Hazırda Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq yalnız siyasi dialoqla məhdudlaşmır, iqtisadiyyat, ticarət, nəqliyyat-logistika, mənəvi-milli dəyərlər, təhlükəsizlik və müdafiə sənayesi kimi həyati sahələrdə dərinləşir. Bu gün türk dünyası nəhəng bir coğrafiyanı və böyük potensialı əhatə edir. TDT-yə daxil olan ölkələrin ümumi ərazisi 4,2 milyon kvadrat kilometrdən çoxdur, əhalisinin sayı isə 180 milyona yaxındır.

Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistanın iqtisadi göstəriciləri birlikdə nəzərdən keçirildikdə, TDT-yə üzv dövlətlərin məcmu nominal ümumi daxili məhsulu 2 trilyon ABŞ dollarını əhəmiyyətli dərəcədə ötür. Bu iqtisadi potensial vahid iqtisadiyyat kimi qiymətləndirilirsə, TDT üzv dövlətləri dünyanın təxminən 12 ən böyük iqtisadi gücü sırasında yer ala bilər. Bu böyük demoqrafik və ərazi potensialı, zəngin təbii resurslar, strateji nəqliyyat dəhlizləri və iqtisadi gücü türk dünyasını qlobal siyasətdə söz sahibinə çevirir.

Dövlət başçımızın 17 sentyabr 2026-cı il tarixində TDT-yə üzv dövlətlərin təhlükəsizlik məsələləri üzrə rəhbər şəxslərini qəbul edərkən səsləndirdiyi fikir Birliyin vacibliyini və buna yönələn ölkələrimizin iqtisadi potensialının və qarşılıqlı maraqlarının möhkəmləndirilməsinin əhəmiyyətini aydın şəkildə ifadə edir: **"Qazaxıstan, Özbəkistan və Qırğızıstanla birgə investisiya fondları yaratmışıq, qarşılıqlı investisiyaların cəlb edilməsi və səfərbər olunması prosesi fəal şəkildə davam edir. Yəni ölkəmizin ikitərəfli gündəliyi ilk növbədə Türk dünyası ölkələrinə yönəlib.... ...O cümlədən demişəm ki, Türk dünyası bizim ailəmizdir və bizim başqa ailəmiz yoxdur".**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edərkən, xüsusi olaraq vurğuladı ki, "Bizim birliyimiz hər birimizi gücləndirəcək. Çünki biz hər birimiz tək qalanda çətinliklərlə üzləşə bilərik. Amma Türk dünyası, Qafqaz, İslam aləmi bir yerdə olanda heç kim bizə bata bilməz. Heç kim bizə qarşı

ədalətsizlik edə bilməz. Ona görə də biz dövlət olaraq və dövlət siyasəti apararaq bu amili həmişə üstün tuturuq".

Dövlət başçımız həmin görüşdə onu da qeyd etdi ki, **"Bizim dinimizə qarşı, İslam dünyasına qarşı elan olunmamış müharibə gedir və islamofobiya onun kiçik bir tərkib hissəsidir. Müsəlman aləmini gözdən salmaq, ləkələmək, terrorla eyniləşdirmək, bizim dəyərlərimizə qarşı, müqəddəs "Qurani-Kərim"ə qarşı o təhqiredici faktlar... Bu, məqsədyönlü siyasətdir. Biz də nə qoymalıyıq bunun qabağına? Ancaq birliyimizi! Ona görə bu birliyə çağırış, sadəcə olaraq, şüar deyil. Azərbaycan çox nadir müsəlman ölkələrindəndir ki, Avropa təşkilatlarında iştirak edir. Ona görə biz bilirik orada nələr baş verir. Avropa Şurasının üzvü olaraq biz bu ədalətsizliklərlə üzləşmişdik, üzləşirik və yəqin ki, üzləşəcəyik...". Odur ki, "...biz hamımız birliyə çalışmalıyıq".**

Dövlət başçısının 17 sentyabr 2026-cı ildə səsləndirdiyi aşağıdakı fikirləri isə böyük maraq doğurur:

"Təşkilatımızın daha bir üstünlüyü ondan ibarətdir ki, o, ümumi etnik köklərə malik ölkələri birləşdirir. Dünyada belə təşkilatlar o qədər də çox deyil. Beynəlxalq təşkilatların siyahısına nəzər salsaq, nadir hallarda belə

mənzərəyə rast gəlmək olar. Bu isə həmrəyliyin mühüm amilidir. Çünki iqtisadi və siyasi maraqlardan əlavə, ölkələrimizin ərazisində yaşayan insanlar, xalqlar arasında münasibətlər də qarşılıqlı əlaqələrimizin möhkəmləndirilməsində mühüm rol oynayır. Buna görə də belə mənəvi birlik, mədəniyyətlərin və dillərin oxşarlığı, ümumi etnik köklər – bütün bunlar təşkilatımızı möhkəmləndirir və ona xüsusi əhəmiyyət verir".

Cənab Prezident 17 sentyabr 2026-cı il tarixində TDT üzv ölkələrin təhlükəsizlik üzrə rəhbər şəxsləri qəbul edərək, ənənə və mənəvi dəyərlərimizin qorunmasına aid aşağıdakı fikirləri söyləyib:

"Əlbəttə, ölkələrimizin və xalqlarımızın daha bir oxşarlığını, yəni bizim öz mənəvi və milli prinsiplərimizə sadiq olmağımızı da qeyd etmək çox vacibdir. Əlbəttə, ölkələrimizdə milli prinsiplər, milli özünüdərk prinsipləri bəzən bizə kənardan təlqin etməyə çalışdıqları digər prinsiplərdən üstündür. Gənc nəslin ölkələrimizdə vətənpərvərlik, milli prinsiplərə və mənəvi dəyərlərimizə sadiqlik ruhunda tərbiyə olunması da çox vacibdir...".

Hörmətli dostlar!

TDT qarşısında ən mühüm məsələ – gələcəkdə mövqeyinin möhkəmlənməsidir. Bu səbəbdən mövcud potensialın daha sistemli və iqtisadi gücə çevrilməsidir. Bir-birini tamamlayan mühüm resurslarını, o cümlədən enerji ehtiyatlarını, nəqliyyat imkanlarını, əlverişli coğrafi mövqeyini, insan kapitalını, investisiya potensialını və ortaq mədəni dəyərlərini vahid strateji düşüncə daxilində əlaqələndirmək və bununla, Türk dünyasının beynəlxalq münasibətlər sistemində nüfuzunu və çəkisini daha da artırmaq.

Bunun əsas imkanı məhz bu potensialın bir sistem daxilində birləşdirilməsidir. Qeyd edək ki, **ortaq tarix mənəvi zəmin yaradır, iqtisadi əməkdaşlıq bu yaxınlığa maddi məzmun verir, təhlükəsizliklə bağlı koordinasiya qarşılıqlı etimadı möhkəmləndirir, siyasi iradə isə bu istiqamətləri strateji məqsədə çevirir.**

Bu, strateji baxış mövqeyindən, **birlik – türk dövlətləri üçün sülh və təhlükəsizlikdir.**

Biz, türk dövlətləri – əqli mülkiyyət təşkilatlarının təmsilçiləri öz işimizi həmin mövqe çərçivəsində qurmalıyıq. Onu da xüsusi qeyd edirəm ki, rəqəmsallaşma və süni intellekt texnologiyaların sürətli inkişaf etdiyi bir dövrdə əqli mülkiyyət sistemləri qarşısında yeni imkanlarla yanaşı, yeni

çağırışlar da meydana çıxır. Azərbaycan bu qlobal proseslərə uyğun olaraq, rəqəmsal transformasiya və süni intellekt sahəsində ardıcıl və məqsədyönümlü siyasət həyata keçirir.

Hesab edirik ki, Sİ – insan sivilizasiyanın ən uca olan icadlarının biri kimi böyük dataların analitikası ilə birgə inqilabi təsiri qarşımızda duran aktual problemlərin biridir. Çünki bu gün onların istifadəsi peşəkar dairələrdə və cəmiyyətdə etik və hüquqi nöqteyi-nəzərindən bir neçə mübahisəli məsələlərə cavabını gözləyir. O cümlədən: Sİ-nin hüquq subyektliyi, Sİ tərəfindən vurulan zərərə görə məsuliyyətə dair mənəvi-etik problemlər, Sİ tərəfindən yaradılan obyektlərə dair hüquqların bölüşdürülməsi və s.

Bu istiqamətdə birgə işlərimiz və fikir mübadiləmiz faydalı olardı.

Dostlar!

2. Biz regional strukturun yaradılması ilə bağlı ƏM sahəsində əməkdaşlığımızı təsdiqləyəcək təkliflər irəli sürmüşük. Bu məsələyə aid fikirlərimi sizinlə bölüşmək istərdim.

Regional təşkilatın yaradılması dövlətlərin müstəqil şəkildə qərar qəbul edilməsindən institusional təsbit edilmiş əməkdaşlığa keçidi kimi şərh oluna bilər.

Belə bir sual qoyaq: əməkdaşlıqda iştirak edən dövlətlər üçün hansı üstünlüklər mövcuddur? Qərarların qəbul edilməsi hüquqların mərkəzləşdirilmiş səviyyəyə ötürüldüyü halda əldə olunan üstünlüklər nə dərəcədə “qarşılana” bilər?

Əslində iştirakçı tərəflərin maraqları həm üst-üstə düşə, həm də düşməyə bilər. Tərəflər bazarın genişləndirilməsi, təhlükəsizliyin təmin edilməsi və infrastrukturun inkişaf etdirilməsi kimi ümumi üstünlüklərin əldə olunmasında maraqlı olmaqla yanaşı, həmin üstünlüklərin və onlarla bağlı yaranan xərclərin bölüşdürülməsi məsələsində rəqabət də ola bilər.

Maraqları bir-birinə zidd olmayan oyunlar nəzəriyyəsi baxımından, belə üstünlüklər iştirakçıların əks maraqlara əsaslanan oyun ilə müqayisədə (sıfır cəmli oyun) kompromis nəticəsində əldə edilir (Əks maraqları olan belə oyunda bir tərəfin qazancı digər tərəfin itirilməsi hesabına əldə olunur).

Koalisiya oyunları nəzəriyyəsi baxımından, yaradılan regional struktur koalisiya tarazlığına əsaslanan qərarlara və ya Pareto-optimal qərarlara söykəndiyi halda dayanıqlı koalisiya təşkil edəcək; belə hallarda iştirakçılar üçün öz qərarlarını (strategiyalarını) dəyişdirmək məqsədəuyğun hesab edilmir. **Belə dayanıqlı koalisiya qərarlarının mahiyyəti ondan ibarətdir ki, tə-**

rəflər ayrı-ayrılıqda fəaliyyət göstərdikləri halda əldə edə bilməyəcəkləri və ya daha çox xərc tələb edən nəticəni əldə etmək imkanına malik olurlar. Başqa sözlə, bu halda koalisiyanın məcmu qazancı tərəflərin ayrı-ayrılıqda fəaliyyət göstərdikləri zaman əldə etdikləri ümumi qazancı üstələyir və **əlavə qazanc şəklində yaranan bu fərq əməkdaşlığın nəticəsidir**.

Bir sözlə, əməkdaşlıq edən strukturun qazancı iştirak edən milli strukturların qazancının arifmetik məcmusu deyil, yəni 2×2=4 deyil, daha doğrusu, 2×2=4 üstəgəl "nəsə"dir və tərəflərin hər birinin əməkdaşlıq nəticəsində yaranan həmin "nəsə"dən öz payı olmalıdır. Yəni, bu əməkdaşlığın sinerjisinin nəticəsidir və əgər belə bir pay mövcud olmasaydı, tərəflərin hər biri üçün də qazanc olmazdı və əməkdaşlıq məntiqsiz və ya dayanıqsız olardı.

Klassik koalisiya modelində separat meyllərin qarşısının alınmasına oyunun nüvəsi, yəni heç bir koalisiyanın bloklaşdıra bilmədiyi qazanc bölgüsündən ibarətdir.

Bizim halda ümumi fayda bütün iştirakçılar üçün onların hər birinin ərazisində regional ekspertizanın və hüquqi mühafizənin daha sürətli və keyfiyyətli həyata keçirilməsindən, habelə daha qənaətli mühafizə sistemindən,

maliyyə daxilolmalarından və innovasiyalara qoşulmaq imkanından yarana bilər.

Beləliklə, səlahiyyətlərin regional təşkilata verilməsi ilə yeni əməkdaşlıq strukturunun yaradılması dayanıqlı əməkdaşlıqdan gözlənilən qazanc naminə müstəqilliyin razılaşdırılmış şəkildə məhdudlaşdırılmasıdır (bax: Avropatent və Avrasiyapatent təşkilatlarının təcrübəsinə).

Hörmətli dostlar!

3. Bizi narahat edən daha bir məsələyə toxunmaya bilmərəm. Bugünkü görüşümüzdə iştirak edən beş türk dövlətinin 4-də əqli mülkiyyətin hər iki ənənəvi istiqaməti, yəni müəlliflik hüququ (Copyright) və sənaye mülkiyyəti üzrə vahid idarəetmə həyata keçirilir (Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistan), ki, bu da "Türk Dövlətlərinin Əqli Mülkiyyət Təşkilatı" adının lehinə dəlalət edir və biz birgə təşkilatda hər iki qolun olmasının tərəfdarıyıq.

Sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı, o cümlədən ilkin və mahiyyəti üzrə ekspertizası da daxil olmaqla, ümumilikdə ekspertizanın nəticələrinə əsaslanır. Ekspertizanın əsas xüsusiyyəti **qarşıqoyma və müqayisə prinsipinin** tətbiq edilməsidir. Eyni zamanda, müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin könüllü qeydiyyatı-

nın qəbul edildiyi ölkələrdə belə qeydiyyat təsdiqləyici xarakter daşıyır, çünki yaradıcılıq fəaliyyətinin nəticəsi olmaqla yanaşı, obyektiv formada ifadə edilmək tələbinə cavab verdiyi halda bu obyektlər qanun normalarına əsasən qorunur. Müəyyən dərəcədə sənaye mülkiyyəti obyektinin mühafizəsi barədə qərarın yalnız ilkin ekspertiza əsasında qəbul edilməsi müəlliflik hüququ obyektlərinin qeydiyyatına bənzəyir. Bu da bir sıra ölkələrdə həyata keçirilir.

Bununla yanaşı, qeydiyyata təqdim edilən sənaye mülkiyyəti obyektləri yaradıcı material kimi eyni zamanda müəlliflik hüququ ilə qorunan obyektlər ola bilər və bu səbəbdən sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı zamanı onların hüquq sahiblərindən istifadəyə dair razılıq, yəni Reyestrə daxilolma və dərc (çap) edilmə zamanı surətçıxarma hüququna dair lisenziya tələb olunur. Hüquqların belə toqquşması patentlərin və həmçinin fərdiləşdirmə vasitələrinin (əmtəə nişanları və coğrafi göstəricilər) qeydiyyatı prosesinə aiddir. Müəlliflik hüququ sənaye mülkiyyəti obyektinə dair iddiaçının özünə məxsus olduğu halda, problemlər asanlıqla həll olunur, lakin müəllif (hüquq sahibi) başqa şəxs olduqda, onun razılığının iddia sənədinə əlavə edilməsi zərurəti yarandığından bu məsələlər mürəkkəbləşir. Bununla yanaşı, ekspertiza təqdim edilmiş materialın

yoxlanılmasını həyata keçirməlidir və qeydiyyat müxtəlif qurumlar (Müəllif hüquqları və Patent İdarələri) tərəfindən aparıldıqda vahid qeydiyyat bazanın olmaması səbəbindən bu prosedur əhəmiyyətli dərəcədə çətinləşir; müəlliflik hüququ ilə qorunan bütün obyektlərin yoxlanılması məsələsi ortaya çıxdıqda isə, ümumiyyətlə belə bir bazanın olmaması səbəbindən bu, adətən mümkün olmur.

Obyektin həm müəlliflik hüququ, həm də sənaye mülkiyyəti hüququ ilə eyni vaxtda və ya **paralel hüquqi mühafizəsinin** mümkünlüyü məsələsi yarandıqda vəziyyət daha da mürəkkəbləşir.

Həqiqətən də, dəyişən dünyada əvvəllər paralel hüquqi mühafizə qəbul edilmirdi və bu, iddiaçının özü tərəfindən təqdim edilən əqli mülkiyyət obyektinin hansı hüquqi statusda mühafizə olunacağını seçməli olması ilə əsaslandırılırdısa, hazırda müxtəlif hüquqi rejimlər çərçivəsində paralel hüquqi mühafizəyə meyl müşahidə olunur. Məsələn, ABŞ Patent İdarəsi patent üzrə iddia sənədlərinin ekspertizasına dair Təlimatda müəlliflik və patent hüquqlarının kəsişdiyi hallarda, dekorativ patent nümunəsinin müəlliflik hüququ ilə də mühafizə oluna bilməsi və bunun üçün iddiaçıdan iddia sənədində © işarəsi vasitəsilə müəlliflik hüququ barədə bildiriş daxil edilməsinin tələb olunduğu barədə qeyd edilir.

Müəlliflik hüququnun hüquq sahibi patent üzrə iddia sənədi və ya ixtiranın təsvirinin Patent Reyestrinə daxil edildiyi formada surətçıxarmaya etiraz etmədiyini bəyan etməlidir və bu halda o, müəlliflik hüquqlarını saxlayır. **Bu isə o deməkdir ki, müəlliflik hüquqları sənaye mülkiyyəti obyektinə olan hüquqlarla paralel olaraq qorunur.**

Misal üçün, müəlliflik hüququnun hüquq sahibinin iddiaçı deyil, başqa şəxs olduğu halda, müəlliflik hüquqlarının sənaye nümunəsi ilə toqquşmasına dair nümunəyə baxaq. Belə halda bu hüquq sahibinin razılığı iddia sənədlərinə mütləq əlavə edilməlidir. Əks halda, o, nəinki sənaye nümunəsinin qeydiyyatına etiraz edə, həm də müvafiq obyektdən istifadəyə yönəlmiş hərəkətlərin dayandırılmasını tələb edə bilər. Beləliklə, sənaye nümunəsinə dair hüquqların qeydiyyatı zamanı **müəlliflik hüququnun mövcudluğuna üstünlük verilir**. Lakin məhkəmələrdə sənaye nümunəsinə dair hüquqların pozulmasına baxılarkən sənaye nümunəsi ilə bağlı hüquqların pozulmasının araşdırılmasına üstünlük verilir (orijinallıq və yenilik baxımından), belə pozuntu olmadıqda isə müstəsna müəlliflik hüquqlarının pozulmasına baxılır. Göstərilən hüquqlar iyerarxiyası doktrinası hüquqi mühafizə meyarları ilə bağlıdır. Bununla yanaşı, ekspertizanın müəlliflik hüququ

ilə qorunan bütün obyektləri reyestr üzrə yoxlamaq imkanının olmaması səbəbindən, məlumatların qanunsuz təqdim edilməsinin aşkar olunmasına **həmin məlumatların dərc edilməsi və bununla bağlı təqdim olunan etirazlar xidmət edir**.

Hörmətli dostlar!

4. İcazənizlə, Azərbaycanın irəli sürdüyü türk ənənələrimizin mühafizəsinə dair bizim ilkin təklif üzərində dayanmaq istərdim.

Məlum olduğu kimi, ənənələr bizi ana bətnindən son mənzilədək müşahidə edir.

Ənənələr özlüyündə müxtəlifdir, lakin onları birləşdirən cəhət ondan ibarətdir ki, onlar bizim sosial-mədəni irsimizin elementləridir. Bunlara adətlər, davranış normaları, mərasimlər və s. aiddir. Sosial-mədəni ənənəmizdə isə etika və əxlaqla təkamül baxımından bağlı olan və mədəniyyətimizin əsası kimi çıxış edən, ənənələrimizi, mərasimlərimizi və adətlərimizi tamamlayan **"mənəviyyat"** xüsusi yer tutur.

Mədəni ənənəmizin elementləri öz növbəsində bu və ya digər şəkildə **folklorumuzda (ənənəvi mədəni ifadələrdə) və ənənəvi biliklərdə əksini tapır**.

İnsanın öz soy-kökünü bilmək və hiss et-

mək istəyi onun təbiətindən irəli gəldiyinə görə və müəyyən mədəniyyətə mənsubiyyətin məhz ənənəyə əsaslanan və onunla sıx bağlı olan folklor olduğundan, folklor bizim identikliyimizin mühüm arqumentidir.

Mədəni irsin bütün aspektlərini əhatə edən folklor haqlı olaraq, **"insan ruhunun arxeologiyası"** adlandırılır.

Ənənələr müəyyən ərazidə, müəyyən coğrafi məkanda iqlim, bitki örtüyü və faydalı qazıntı yataqları kimi təbii şəkildə yaranır və yalnız tarixi prosesin gedişi onları ən mühüm resursa və milli sərvətin ən qiymətli hissəsinə çevirir.

Folkloru, həqiqətən də, qocalıqdan ölüm təhlükəsi gözləmir, çünki o, keçmişin şahididir və keçmiş olmadan bu günün gələcəyi də yoxdur. Bu səbəbdən folklor canlı və daim inkişaf edən ənənədir. O, sadəcə keçmişin xəbərçisi deyil; folklor bu gün də inkişaf edir və yaranır, eyni zamanda həm keçmiş sistem, həm bu gün fəaliyyət göstərən sistemin əsası, həm də yenisinin yaradılması mənbəyidir.

Folklorda yaranan bütün yeniliklər ənənənin daxilində və onunla qarşılıqlı əlaqədə formalaşır.

Bugünkü ənənə keçmişdəki tərəqqi olduğu kimi, bugünkü tərəqqi də sabahın ənənəsinə çevriləcək.

Bir sözlə, folklor mədəni ənənələrimizin cəm-

ləşdiyi mənbə və daim zənginləşən xəzinədir. **Bir daha qeyd edək ki, folklor keçmişimizin elə bir yadigarıdır ki, onsuz bu günümüzün gələcəyi yoxdur.**

Belə bir resursdan səmərəli istifadə etmək üçün onu qorumaq, onun üçün hüquqi (qorunma) sahəsi yaratmaq, inkişaf etdirmək və gələcək nəsillər üçün qoruyub saxlamaq zəruridir. Deməli, mədəni ənənələrin zənginliyi və müxtəlifliyi yalnız etnik birliyin, xalqın inkişafı üçün mənəvi zəmin deyil, həm də onun iqtisadi tərəqqisi üçün resursdur.

Məhz folklora münasibətdə hüquqi qorunma (mühafizə) sahəsinin yaradılması məqsədilə Azərbaycan Respublikası 2003-cü ildə **"Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Qanunu** qəbul etmiş və həmin qanunun həyata keçirilməsi üzrə kompleks tədbirlər həyata keçirir.

Beynəlxalq ictimaiyyət Azərbaycanda folklorun qorunması üzrə hüquqi tədbirlərə böyük maraq göstərmiş və onlara layiqli qiymət vermişdir. Xüsusilə, BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsi 2004-cü ildə yekun sənədində qeyd olunan qanunun qəbul edilməsi ilə əlaqədar görülən müsbət işi xüsusi olaraq vurğulamışdır.

Ənənəvi biliklər isə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun ictimai

varidat çərçivəsində mühafizə olunur.

Qeyd etdiyim mülahizələr qeyri-maddi mədəni irsə aiddir.

Bir neçə kəlmə də maddi-mədəni irsin qorunması və Azərbaycanın buna aid ənənəsi ilə bağlı demək istəyirəm:

Qarabağın və Şərqi Zəngəzurun uzun illər davam etmiş işğalı, o cümlədən məscidlərin və İslam mədəni irsi obyektlərinin vəhşicəsinə dağıdılmasının və təhqirə məruz qalmasının barbar nəticələri dünyaya məlumdur. Bununla belə, qələbəmizdən sonra Azərbaycanın üzləşdiyi bu hal xristian mədəni irsinə münasibətdə qisas və ya cavab siyasətinin həyata keçirilməsi üçün əsas olmamışdır. **Bundan əlavə, xristian abidələrinin qorunub saxlanılması Azərbaycanın öz tarixi-mədəni irsi qarşısında daşıdığı məsuliyyətin ayrılmaz tərkib hissəsidir. Suveren ərazimizdə yerləşən xristian mədəni irsi obyektləri onların mənşəyindən və konfessional mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın mədəni irsi hesab olunur.** Tarixi irs ölkəmizin mədəni irsinin bir hissəsidir, konfessional qarşıdurma müstəvisindən kənara çıxarılmışdır və nəticə etibarilə, mühafizə edilməli və gələcək nəsillər üçün qorunub saxlanılmalıdır. Ölkəmizdə dini birgəyaşayış, dini dözümlülük, konfessional qarşıdurmanın olmaması və müxtəlif dini etiqad-

lara hörmət ənənələrinin kökləri Azərbaycanın qədim tarixinə gedib çıxır. Azərbaycan ərazisi oda sitayişin qədim mərkəzlərindən, xristianlığın erkən yayıldığı ocaqlardan, eləcə də İslam dininin ilk yayıldığı bölgələrdən biri olmuşdur. Bugünkü multikulturalizm ənənəsi isə tarixən mövcud olmuş dini birgəyaşayış ənənəsinin nəticəsi olmaqla, dövlət siyasəti ilə daha da möhkəmləndirilmişdir.

Uğurlar arzumu hamıya çatdırıram və diqqətinizə görə təşəkkür edirəm.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.